# NAXÇIVANDA ŞƏHƏRSALMA MƏDƏNİYYƏTİNƏ BİR NƏZƏR

**Qədim Naxçıvan diyarında aparılan beynəlxalq səviyyəli son ekspedisiyalar burada şəhər mədəniyyətinin 5000 illik bir tarixə malik olduğunu sübuta yetirmişdir. Bu gün həm də Nuh yurdu adlanan bu torpaqda bəşəriyyətin yeni sivilizasiya mərhələsinə məhz Gəmiqayadan qədəm qoyması artıq elmi cəhətdən də təsdiq olunmuşdur. Buradakı müxtəlif forma və məzmunlu qayaüstu rəsmlər çox mətləbləri anladaraq qədim tarixin qaranlıq səhifələrini aydınladır. İrili-xırdalı daşlar üzərinə həkk olunmuş rəsmlər burada məskunlaşmış ilk sakinlərin — əcdadlarımızın yaradıcılığa, kütləvi rəqslərə, təsviri sənətə meyilliliyindən xəbər verir.**

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Qadir Qədirzadənin "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan" adlı kitabının təqdimatına həsr olunmuş yığıncaqda Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli öz təxəyyülünə əsasən belə bir fərziyyə irəli sürdü ki, bəlkə elə Novruz bayramı Nuhun bu torpaqlara qədəm qoyduğu zamanlardan qeyd edilməyə başlanmışdır? Bəlkə də Novruz o vaxtlar həm də Nuhruz, yəni Nuhun günü adlanmışdır?

Əlbəttə belə bir fərziyyə ətrafında düşündükdə müxtəlif maraqlı versiyalar meydana gəlir: Hz. Nuhun məşhur gəmisinin dəhşətli tufandan uzun müddət keçdikdən sonra sakit sularda quruya - torpağa yanaşması yaz vaxtına, daha dəqiqi ilk bahara təsadüf etmişdir. Hər şeydən əvvəl xatırlamaq lazımdır ki, lap yaxınlıqda torpağın olması müjdəsini gəmidəkilərə buradan pərvazlandırılan qaranquş gətirmişdir. Heç şübhəsiz ki, soyuq aylarda qaranquş gözlə seçilməyən bir məsafəni qət edib geri dönə bilməzdi.

"Sonra belə deyildi: "Ey Nuh! Sənə və Səninlə birlikdə (gəmidə) olan camaatdan törənəcək (mömin) ümmətlərə Bizdən əmin-amanlıq və bərəkətlər bəxş edilməklə gəmidən en...". Gəminin torpağa yan almasından sonra Hz. Nuh, onun ailə üzvləri, qohum-əqrəbası, dostları, ümumiyyətlə, hamı qurtuluşun sevincini yaşamış və mütləq məhz həmin günün axşamı tonqallar qalamış, ocaqlar yandırmış, böyük bir şənlik süfrəsi ətrafında mahnı oxuyub rəqs edərək ilk gecəni şadyanalıqla keçirmişlər. Çox böyük ehtimalla demək olar ki, həmin günün sabahı - yeni torpaqda açılan ilk səhəri Hz. Nuh hamı üçün yeni gün elan etmiş və bundan belə yeni dövrün, yeni həyatın başlandığını bildirmişdir. Beləliklə, xalqımızın məşhur deyimlərindən olan "Nuh əyyamı" məhz həmin gündən başlamışdır.

Çox güman ki, yeni torpaqda məskunlaşma əsaslı şəkildə başa çatdıqdan sonra burada həyat öz axarı ilə davam etməyə başlamış, su mənbələri aşkar edilmiş, əkinçilik, maldarlıq, ovçuluq və balıqçılıq yeni bir vüsət almışdır. İlk ilin fəsilləri bir-birini əvəz etmiş və yenidən bu yerlərə bahar gəlmişdir. Qaranquşların qayıdışı ilə hamı yeni günün dönüşünü hiss etmiş, Hz. Nuhun ətrafına toplanıb bu günü — yeni həyata başladıqları günün birinci ildönümünü böyük bir el şənliyinə çevirərək sevinclə qeyd etmişlər.

"Tufandansonrakı ikinci törəyiş Nuhun oğulları ilə başlayır... "Nuhdaban" əfsanəsinə görə Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Nuh oğlanlarına hər tərəfdən dağlarla əhatə olunan bu yerlərdə yurd salmağı nəsihət edərək deyir: "Bu arada yurd salın. Dediyim üç dağ sizə qüvvət, bərəkət verəcək. Bərkdə şərdən, yağıdan qoruyacaq".

Bütün bunlar belə bir fərziyyə irəli sürməyə əsas verir ki, Gəmiqayanın ilk sakinləri burada başladıqları yeni həyatlarının hər il böyük təntənə və şadlıqla qeyd etdikləri ilk gününü öz xilaskarlarının şərəfinə "Nuh günü" — "Yeni gün" adlandırmışlar. Eralar, qərinələr, əsrlər bir-birini əvəz etdikcə Gəmiqayada məskunlaşanların sayı ilbəil artdığından onlar böyük tayfalar şəklində ətraf bölgələrə köç edərək yeni məskənlər salmışlar. Bu müddətdə Gəmiqayadakı dil də yeni yaranan tayfalar tərəfindən müxtəlif çalarlara salınmış, yeni sözlər, ifadələr, deyimlər meydana gəlmişdir ki,



bunun da nəticəsində öz dili olan yeni millətlər formalaşmağa başlamışdır. Həmin səbəbdən də hər bir yeni millət ulu babası Hz. Nuhu öz dilinə məxsus qaydada adlandırmışdır. Məsələn, müasir xristian aləmi "İncil"dən qaynaqlanaraq ona Noy deyir. Miladdan əvvəl bu insanlar da şübhəsiz, "Nuh günü"nü tam mənası ilə şadyanalıqla qeyd etməsələr də, ilk baharın gəlişi günlərində onu "Den Noya" yaxud "Noynı den", "Novıy den", "Nyu day", "Nuvel jur", "Ney dey", "Növ ruz", "Nevruz" və s. ifadələrlə xatırlamışlar.

Əlbəttə ki, Hz. Nuh da ömrünün sonuna kimi Gəmiqayada qalmamış, illər bir-birini əvəzlədikcə o da ətraf bölgələrə səyahət etmiş, buraların təbii şəraitini, coğrafi mövqeyini, iqlimini, yeraltı və yerüstü sərvətlərini, bioloji aləmini dərindən öyrənmiş və ən nəhayət, gəlib Araz sahilinə çıxmışdır. Bu ərazidə duz yataqlarının olduğunu hiss edən Hz. Nuh ilk dəfə olaraq Duz dağı kəşf etmiş və onu müşayiət edən dəstədən adamlar seçərək onları ətraf bölgələrdə yaşayan insanları da bu əraziyə dəvət etməyə göndərmişdir. Bir müddət sonra burada demək olar ki, o dövr üçün ilk dəfə olaraq intensiv duz istehsalı və istehlakı prosesi başlamışdır.

Bu prosesə müntəzəm rəhbərlik edən Hz. Nuh Duz dağı yaxınlığında yeni yaşayış məskəni salınmasına qərar vermişdir. Burada məskunlaşan insanlar bölgədəki bir çox yerlər kimi bu yeni məskəni də Hz. Nuhun şərəfinə Nuhçıxan (onun uzun səyahətdən sonra Araz sahilinə gəlib çıxması ilə bağlı) adlandırmışlar.

"Tarixi-dini mənbələrdə mədəniyyət, yəni insan, onun yaradılışı və sonrakı inkişafı iki böyük dövrə ayrılır: Adəm Peyğəmbərdən Nuh Peyğəmbərəqədərki mədəni həyat; Nuh Peyğəmbər və Dünya tufanından sonrakı mədəniyyət.

...Son illərin bir sıra araşdırıcıları, xüsusən Devid Rol bunun (insanın tədricən müəyyən ərazilərə yayılmasının - Ə.Q.) Azərbaycan ərazisində, Urmiya gölü hövzəsində baş verdiyini, hətta lokallaşdırmada Araz çayının da həmin hövzəyə daxil olduğunu yazır. ...Zaman keçdikcə insanlar yeni yurdlara yayıldılar. Adəm Peyğəmbərdən Nuh Peyğəmbərə qədər on nəsil dəyişdi".

Belə bir rəvayət də vardır ki, Hz. Nuh Araz sahilinə ilk dəfə indiki Nehrəm kəndinin yerləşdiyi ərazidən gəlib çıxmış, o taylı-bu taylı gözəllikləri görüb məftun olmuş, bu gözəl məkanın onu ram etdiyini və bundan sonrakı ömrünü bu yerlərdə sürmək istədiyini etiraf etmişdir. O vaxtdan burada məskunlaşan əhali həmin yeri Nuhram (Nuhu ram edən yer) adlandırmışdır. Məhz yeni salınan və Duz dağdan Nuhrama qədər olan bir ərazini əhatə edən yaşayış məskəni - Nuhçıxan, demək olar ki, təxminən bir əsrdən sonra böyük və yaraşıqlı bir şəhərə çevrilmiş, özünün gözəlliyi və şöhrəti ilə yaxın-uzaq bölgələrdə məşhurlaşmışdı.

"Yəhudi tarixçisi İ.Flavi Naxçıvan ərazisini Nuhun gəmisinin ilk dayanacaq yeritək qəbul edərək bu torpağı bəşər nəslinin ilk beşiklərindən biri hesab edirdi. Qədim və orta əsr müəlliflərinin əsərlərində Naxçıvan sözünün meydanagəlmə məsələsinə toxunulur, bu şəhərin Nuhun adı ilə bağlılığı vurğulanır, Naxçıvan Nuh Peyğəmbərin ilk saldığı şəhərlərdən biri kimi oxuculara təqdim olunurdu".

Bu şəhər öz coğrafi mövqeyinə görə karvan yollarını özündə birləşdirən iri bir ticarət mərkəzinə çevrilmişdi. Əsasən duzu ilə şöhrətlənən bu şəhər artıq dadlı bağ-bostan məhsulları, sərin mineral bulaqları ilə də tacirləri özünə cəlb edirdi. Şəhər böyüdükcə burada yeni bazarların, ticarət mərkəzlərinin, karvansarayların, körpülərin və kəhrizlərin də inşasına diqqət artırılırdı.

"Naxçıvanda olan su sistemləri və kəhrizlərin tarixi daha qədimdir... Bu abidələrin üzərində xalq sənətkarlarının milli memarlıq üslubu, sudan istifadə mədəniyyəti, adət-ənənələrin izləri qalmışdır...

Şəhərsalma mədəniyyətinin inkişafında kəhriz sistemlərinin rolu əvəzedilməzdir. Əhali ta qədimdən yeganə su mənbəyi kimi kəhriz suyundan həm məişətdə, həm də həyətyanı sahələrin suvarılması üçün istifadə etmişdir. Bu su sistemləri ayrı-ayrı icmalar, imkanlı adamlar, bəylər, xanlar, şahlar tərəfindən inşa edilmişdir...

Hazırda bu abidələrin bir qismi tamam dağıdılmış, bir qismisə bərpasını gözləyir. Naxçıvanın analoqu olmayan kəhriz abidələri şəhərsalma mədəniyyətində və müdafiə məsələlərinin həllində böyük əhəmiyyət kəsb etmişdir".

Heç şübhəsiz ki, bu inkişaf və çiçəklənmə fonunda əhalinin mədəni istirahəti də təmin edilirdi. Araz sahilində, şəhərətrafı yol kənarlarında, mərkəzi küçələrdə salınmış bağ və meydanlarda əyləncə günləri, el şənlikləri, xalq tamaşaları, musiqiçilərin, xanəndə və rəqqasların, gözbağlayıcıların, kəndirbazların, ilan ovsunçularının, ayıoynadanların çıxışları olurdu. Belə şənliklərin ən irimiqyaslısı ənənəvi Novruz Bayramı idi.

Yeni şəhər böyüdükcə belə mərasimlərin keçirilməsi üçün də xüsusi məkanlar nəzərdə tutulur və onların tikintisinə də böyük diqqət yetirilirdi. Burada xalqın təsviri və dekorativ-tətbiqi sənətə olan marağını da inkişaf etdirmək üçün şəhərin görkəmli yerlərində, bazarlarda, mərkəzi küçə və meydanlarda rəssamlıq, memarlıq, heykəltəraşlıq, naqqaşlıq, zərgərlik, misgərlik, dulusçuluq, ağac üzərində oymaçılıq, xalçaçılıq, toxuculuq, şirniyyatçılıqla məşğul olan sənətkarların geniş və səmərəli fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılır, yeni-yeni emalatxana və dükanlar inşa olunaraq onların ixtiyarına verilirdi. Şəhərin bəzi məhəllələrində ən məşhur ustadların yetirmələri üçün xüsusi məktəbləri də var idi.

Azərbaycanın intibah dövrü və qızıl əsri adlanan XII əsrdə qüdrətli Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan şəhəri artıq yaxın-uzaq ölkələrdə "Nəqşi-cahan" (dünyanın naxışı, incisi) kimi məşhurlaşmışdı. Məhz bu dövrdə banisi Əcəmi Əbubəkir oğlu olan "Naxçıvan memarlıq məktəbi" də formalaşıb yayılmağa başlamışdı. Bu dövrdə xeyli sayda inşa olunmuş möhtəşəm məscidlər, mədrəsələr, karvansaraylar, bazarlar, körpülər, türbələr şəhərin gözəlliyini birə on artırırdı. "Artıq XIV əsrin əvvəllərində Naxçıvan memarlıq məktəbinin ustaları öz doğma şəhərləri hüdudundan xeyli uzaqlarda böyük şöhrət qazanmışdılar. "XIII- XIX əsrlərdə Naxçıvan diyarında xeyli sayda sənətkarlar — memarlar, rəssamlar, heykəltəraşlar, xəttatlar, naqqaşlar, zərgərlər, dulusçular, digər dekorativ-tətbiqi sənət ustaları meydana gəlmişdir.

Böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, əsasən orta əsrlərdə yaxın-uzaq qəsbkarların qısqanclığı və acgözlüyü ucbatından Naxçıvana edilən saysız hücum və basqınlar nəticəsində baş vermiş işğal müddətlərində şəhər vəhşicəsinə dağıntılara, qırğınlara və talanlara məruz qalmış, ən gözəl sənətkarlar qətlə yetirilmiş, bir qismi isə əsir kimi müxtəlif ölkələrə aparılmışdır. Bütün bunlar xalqımızın şəhərsalma mədəniyyətinə, o cümlədən də ümummilli mədəniyyətin tərəqqisinə ciddi zərbə vurmuşdur.

XIX əsrin əvvəllərindən, xüsusən də "Türkmənçay" müqaviləsinin bağlanması ilə Naxçıvan Xanlığının ləğvindən və buraya Rusiya İmperiyası qoşunlarının müdaxiləsindən sonra şəhərdə və ümumiyyətlə, bölgədə şəhərsalmanın tamamilə yeni formaları tətbiq olunmağa başladı. XİX əsrin ikinci yarısında artıq Naxçıvan şəhərində ruslar tərəfindən tikilmiş bir sıra inzibati və yaşayış binaları ilə yanaşı yay zalı olan yeni mədəniyyət və istirahət parkı, klub, kitabxana, məktəb də inşa olunmuşdu. Parkın yay zalında və şəhər klubunda rus məmur və zabit ailələri üçün vaxtaşırı konsertlər və teatr tamaşaları təşkil olunurdu.

Belə tamaşaları seyr etmək imkanı qazanan Naxçıvanın milli gənc ziyalıları yadellilərin işğalçılıq siyasətini qəbul etməsələr də, rusların özlərininki adlandırdıqları Avropa mədəniyyətini tətbiq etməklə şəhərin mədəni səviyyəsinin dirçəlişinə və tərəqqisinə təsir edən tədbirləri təqdir edirdilər. Nəhayət, bu təsir altında həmin ziyalıların təşkil etdikləri "Müsəlman incəsənəti və dram cəmiyyəti" 1883-cü ildə Naxçıvan şəhərində ilk dəfə milli dramaturgiyadan bir nümunə olan komediya əsasında hazırladıqları tamaşa ilə bu gün 130 yaşına qədəm qoyan Naxçıvan Teatrının əsasını qoydu.



XX əsrin əvvəllərində Naxçıvanda teatr, kitabxana, klub, parklar və bir neçə məktəb fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində hər yerdə olduğu kimi qədim Naxçıvanda da şəhərsalma yeni bir vüsət almışdır. 1950-60-cı illərdə şəhərdə Dövlət Musiqili Dram Teatrı, Muxtar Respublika Kitabxanası, Dövlət Tarix



Muzeyi, Muxtar Respublika Ədəbiyyat Muzeyi, mərkəzi xəstəxana, doğum evi, internat-məktəb, orta məktəblər, uşaq bağçaları, Teleradio Verilişləri Komitəsi, yeni kinoteatr, möhtəşəm binalar inşa olunmuş, Stadion, "Naxçıvan" mehmanxanası, mərkəzi univermaq, tikiş fabriki, ət və süd məhsulları kombinatı, onlarca çoxmərtəbəli yaşayış binaları tikilmiş, mərkəzi mədəniyyət və istirahət parkı yenidən qurulmuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövründə — 1970-80-ci illərdə hər bir bölgədə olduğu kimi Naxçıvanda da şəhərsalma mədəniyyətində bir dirçəliş dövrü yaşandı. Mədəniyyət Sarayı, xatirə muzeyi, musiqi və politexnik texnikumlar, Dövlət Pedaqoji İnstitutu üçün yeni korpus, xəstəxana, şəhər poliklinikası, mərkəzi uşaq xəstəxanası, körpələr evi, pionerlər sarayı, şahmat məktəbi, mərkəzi poçtamt, aeroport, avtovağzal, mərkəzi bazar, "Təbriz" mehmanxanası, "Uşaq şəhərciyi", "Qızlar bulağı" mədəniyyət və istirahət parkları, "Cavid" Poeziya Teatrı, H. Cavid və C. Naxçıvanskinin ev-muzeyləri, Dövlət Filarmoniyası, Dövlət Rəsm Qalereyası, Dövlət Kukla Teatrı, "Yeni Naxçıvan" yaşayış massivi, alüminium qablar və şüşə qablar zavodları, alt trikotaj paltarları fabriki, elektrotexnika və dəmir-beton zavodları, evtikmə kombinatı və neçə-neçə sənaye müəssisəsi məhz bu illərin yeni obyektləridir. Məhz həmin dövrlərdə Azərbaycanda ilk dəfə xalq qəhrəmanları Babəkə və Koroğluya Naxçıvan şəhərində möhtəşəm heykəllər ucaldılmışdır.

1990-93-cü illərdə Heydər Əliyevin Naxçıvandakı titanik siyasi fəaliyyəti nəticəsində muxtar respublika və onun paytaxtı təcavüzkar və xain qonşularımızın qarşısında alınmaz qala kimi məğrur dayandı, döyüşdü, yaşadı. Bu illərdə blokada vəziyyətində olduğundan Naxçıvanda heç bir tikinti aparılmasa da, tikilənlər qorundu, mühafizə edildi.

1995-ci ilin sonundan başlayaraq Naxçıvanda sözün əsl mənasında şəhərsalma mədəniyyəti vahid bir proqram əsasında həyata keçirilməyə başladı. 1996-cı ilin əvvəlindən muxtar respublikanın paytaxtında abadlıq işləri geniş vüsət aldı. Həmin ilin oktyabr ayında Hüseyn Cavidin Ev-Muzeyinin qarşısında onun gözoxşayan məqbərəsinin tikintisi tamamlandı. Elə həmin ay bu abidənin təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etdi və çıxışında son bir il ərzində quruculuq, abadlıq sahəsində Naxçıvan şəhərində qlobal dəyişikliklərin baş verdiyini xüsusi vurğuladı.

Bəli, 1996-cı ildən qədim Naxçıvan diyarında şəhərsalma mədəniyyəti quruculuq-abadlıq-yaşıllaşdırma proqramı əsasında yüksəliş və inkişaf yoluna qədəm qoydu. Son 15 il ərzində muxtar respublika və onun paytaxtında misli görünməmiş tikinti, quruculuq, abadlıq və yaşıllaşdırma işləri həyata keçirilmişdir.

Bu gün Naxçıvan şəhəri "Nəqşi-cahan" adını özünə qaytara bilib. Əsaslı bərpa nəticəsində ikinci həyatına qədəm qoyan "Köhnə Qala"nın ərazisində, elmi-tədqiqat nəticəsində Nuh Peyğəmbərin aşkar edilmiş məzarı üzərində əzəmətli türbə ucaldılmışdır.

Bu gün şəhərsalma mədəniyyəti sahəsində özünün intibah dövrünü yaşayan qədim Nuh yurdunun yeni tikililəri sırasında özünəməxsus yeri və gözəlliyi olan bu türbə Naxçıvanın doğrudan da Nuhçıxan olduğunu bir daha sübuta yetirir və "...hazırkı mərhələdə Naxçıvan dünya Nuhşünaslıq elminin Azərbaycandakı mərkəzinə çevrilməkdədir. Bütövlükdə Gəmiqaya tədqiqatları ilə Naxçıvanda məskunlaşmanın da, əkinçiliyin və duzçıxarmanın da, şəhərsalmanın da sirləri açılmağa başlanmışdır. Bu qənaətlər isə elm aləmi qədər də, hətta bir az da artıq müstəqil dövlətçilik baxımından haqsız iddialarla üzləşən qədim diyar üçün maraqlı, cəlbedici və əhəmiyyətli məsələlərdir".

İndi Naxçıvanda geniş miqyasda, planlı şəkildə gedən şəhərsalma mədəniyyəti əhalinin qürur və iftixar mənbəyinə, buraya gələn hər bir qonağın həsəd və heyranlığına səbəb olan amilə çevrilmişdir.

**Ələkbər QASIMOV,**
**AMEA Naxçıvan bölməsinin elmi əməkdaşı.**